# "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında"Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 243; 1995, № 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 6-cı maddəsinin birinci hissəsinin 1-ci bəndinə "Administrasiyasının" sözündən sonra "rəhbər işçilərinə (şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərlərinin müavinləri də daxil olmaqla yuxarı vəzifəlilərə)" sözləri əlavə edilsin.

**Maddə 2.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci maddədən "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədrinə, sədr müavinlərinə və digər üzvlərinə," sözləri çıxarılsın;

2.2. 8.1.4-cü maddədən "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatı," sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 11.1.2.6-1-ci maddə əlavə edilsin:

"11.1.2.6-1. Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2025-ci il*

Azərbaycan.- 2025.- 26 iyun (№ 130).- S.2.